HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 sentyabr 2016-cı il
№017 (31)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## SOCAR GÜRCÜSTANDA YENİ QAZPAYLAYICI ŞƏBƏKƏ AÇDI



SOCAR-ın prezidenti Rövnəq Abdullayev avqustun 3-də Gürcüstana səfəri çərçivəsində ölkənin energetika naziri Kaxa Kaladze (artıq sabiq nazir - red.) ilə birlikdə Marneuli rayonunun Qırıxlı kəndində qazpaylayıcı şəbəkənin açılışında iştirak edib.

Qırıxlıda bu şəbəkəyə 259 abunəçi qoşulub.

Kənd sakinləri ilə görüşdə qeyd olunub ki, ilin sonunadək qonşu Aşağı Qullar kəndinin qazlaşdırılması da başa çatacaq və şəbəkəyə 137 abunəçi qoşulacaq.

Rövnəq Abdullayev Kvemo Kartli bölgəsində qazlaşdırmanın ümumi vəziyyətilə maraqlanıb. Məlumat verilib ki, indiyədək bölgədə 26837 abunəçinin qazlaşdırılması üçün 1027 kilometr uzunluğunda qaz kəməri çəkilib. Cari ildə 158 kilometrlik qaz xəttinin çəkilişindən sonra 3500 abunəçinin qazla təminatının da mümkün olacağı bildirilib.

Ümumilikdə isə 2009-cu ildən bu günədək SOCAR Georgia Gass törəmə şirkəti ölkədə 5360 kilometr uzunluğunda qaz xətti çəkib, 209136 abunəçi qazla təmin olunub. 2016-cı ilin sonunadək daha 1600 kilometrlik qaz xətti çəkərək, 40000 abunəçini “mavi yanacaq”la təmin etmək nəzərdə tutulur.

## GÜRCÜSTAN BAŞ NAZİRİ MÜSƏLMANLARI QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB

Gürcüstanın baş naziri Georgi Kvirikaşvili sentyabrın 11-də Tbilisidəki cümə məscidinə baş çəkərək, buraya toplaşan müsəlmanlarla görüşmüş və bütün ölkə müsəlmanlarını müqəddəs Qurban bayramı münasibətilə təbrik etmişdir.



Müsəlmanların Qurban bayramı müqəddəs Zil-Hiccə ayının onuncu günü qeyd edilir. Bu il üç gün davam edən bayram sentyabrın 12-də başlayıb.

Məscidə toplaşanlara müraciət edən Georgi Kvirikaşvili deyib: “Bildiyimiz kimi, bu gün müsəlmanlar dinindən asılı olmayaraq bütün ətrafdakı adamlara kömək edirlər. Məhz bu cür yanaşma ölkəmizdə zəngin mədəniyyətin mövcudluğunu qoruyub... Gürcüstan vahid və güclü ölkə quruculuğunda hər bir müsəlmanın töhfəsini qiymətləndirir”.

## AZƏRBAYCAN GÜRCÜSTANA YENİ TRAKTORLAR GÖNDƏRDİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövnəq Abdullayev Gürcüstana səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə Gəncə Avtomobil Zavodunun istehsalı olan 8 yeni “Belarus” traktorunu Kvemo Kartli regionunun nümayəndələrinə təhvil verib.

İlham Əliyev ötən ilin noyabr ayında Gürcüstana səfəri zamanı Kvemo Kartli regionunun sakinləri ilə görüşündə regionun kənd təsərrüfatının inkişafı ilə bağlı mümkün yardımın göstəriləcəyini bildirmişdi. Prezidentin tapşırığına əsasən bu ilin mart ayında 10 ədəd “Belarus” traktoru və qoşqular Rustavi şəhərində Kvemo Kartli regionunun rəhbərliyinə təhvil verilmişdi. Sentyabrın 3-də daha 8 ədəd traktor və 8 aqreqat komplekti Marneuli rayonuna verilib.



Mərasimdə Gürcüstanın energetika naziri Kaxa Kaladze, Azərbaycanın bu ölkədəki səfiri Azər Hüseyn, Kvemo Kartli bölgəsinin qubernatoru və digər rəsmi şəxslər iştirak ediblər.

## NATO-NUN BAŞ KATİBİ GÜRCÜSTANA SƏFƏR EDİB

NATO-nun baş katibi Yens Stoltenberq Gürcüstanda səfərdə olub.



Stoltenberq ikigünlük səfəri çərçivəsində Gürcüstan prezidenti Georgi Marqvelaşvili, parlamentin sədri David Usupaşvili və müdafiə naziri Levan İzoriya ilə görüşlər keçirib.

NATO baş katibi habelə Tbilisidə Gürcüstan parlamentinin binasında tələbələr qarşısında çıxış edib.

Yens Stoltenberq sentyabrın 7-8-də Gürcüstanda keçirilən NATO-nun Şimali Atlantika şurasının sessiyasında iştirak edib.

## KALADZE: GÜRCÜSTAN AZƏRBAYCANI SEÇDİ



Qazlaşdırmaya dair, eləcə də digər məsələləri Gürcüstan hökuməti Azərbaycan Dövlət Neft Şirkəti ilə (SOCAR) birlikdə həll edəcək. Bu barədə sentyabrın 3-də Gürcüstanın energetika naziri Kaxa Kaladze bəyan edib.

Rusiya və digər dövlətlərlə danışıqlar məsələsinə toxunan nazir, bu məsələlərin artıq öz həllini tapdığını bildirib: “Biz SOCAR-la işləyirik və bu məsələ artıq bağlanıb”.

Kaladze iki ölkə arasında münasibətlərin inkişaf etdiyini vurğulayaraq qeyd edib: ”Biz bu günlərdə Bakıda olduЦq, məhsuldar görüşlər keçirdik. Bu gün yeni qazpaylayıcı məntəqə açırıq. Azərbaycan hökuməti Gürcüstan əhalisinin qazla təmin olunmasına yardım edir. Buna görə Azərbaycan prezidentinə minnətdarlığımızı bildiririk”.

Marneuli rayonunun Qırıxlı kəndində qazpaylayıcı məntəqənin açılış mərasimində iştirak edən SOCAR-ın prezidenti Rövnəq Abdullayev bildirib ki, SOCAR Azərbaycanda olduğu kimi, Gürcüstanda da qazlaşdırma üzrə işləri uğurla həyata keçirir. O, deyib: “İlin sonunadək daha 40 min abunəçi qazla təmin olunacaq. SOCAR Gürcüstan hökməti qarşısında götürdüyü bütün öhdəlikləri yerinə yetirir”.

Sonra rəsmi şəxslər Qırıxlı kəndinin sakinləri ilə görüşərək, onları narahat edən problemlərlə maraqlanıblar.

HEYVANSEVƏRLƏRLƏ SÖHBƏTDƏN FRAQMENTLƏR 2
AVROPAYA VİZASIZ GEDİŞ-GƏLİŞDƏN GÖZLƏNTİLƏRİMİZ 3
İRAN-SƏUDİYYƏ ƏRƏBİSTANI MÜNASİBƏTLƏRİ KÖLGƏSİNDƏ BAŞ VERƏNLƏR 4
İSLAM SÜLH VƏ BARIŞ DİNİDİR 5
ATƏŞKƏS (innovasiya) 6
ƏN GÜCLÜ ZƏHƏR – TƏRİF 7
AZƏRBAYCANLI GƏNC AVSTRALİYADA ELMİ JURNALIN BAŞ REDAKTORU SEÇİLİB 8



## HEYVAN-SEVƏRLƏRLƏ SÖHBƏTDƏN FRAQMENTLƏR

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Qəzetimizin bu sayında nədən yazım, nədən başlayım, nədə bitirim kimi suallar üzərində baş sındırırdım ki, ey dili-qafil, burada Allah saxlasın nə var, götür Qurban bayramının fəzilətlərindən bir şey yaz və ya ilk dərs gününün başlanmasından nəsə yaz, vəssəlam-şüttamam, işin də düzəlib getsin. İki fikir arasında qalmaq, daha doğrusu dilemma qarşısında davam gətirmək də asan məsələ deyil. Nədən ki, mövzunun ikisi də gözəldir, vazkeçilməzdir. Üstəgəl də, iki özəl hadisənin, iki gözəl bayramın eyni vaxta təsadüf etməsi, üst-üstə düşməsi də nadir hadisələrdəndir. İndi mən bu iki ictimai hadisəyə münasibət bildirmək fikrinə eyni vaxtda girişsəm bilirəm ki, qınayanlar tapılacaq və deyəcək ki, bunlardan birinə düz əməlli bir münasibət bildir deyənlər olacaq. Qınaq növbəsinə duranları mən bu məqamda haqlı sayıram.**

O üzdən də mən mövzunun birini seçmək barədə xeyli düşündüm və bunlardan biri barədə söz deməyin doğru olması qənaətinə gəldim. Bəs hansını seçməli? Təkrar da olsa deyim ki, mövzunun ikisi də mənim könlümcədir, mənə doğmadır. Elə bunları düşünürdüm ki, sosial şəbəklərdə diqqətimi bir zad çəkdi. Baxdım ki, bir dəstə adam oturub Qurban bayramında kəsilən qurbanların yasını saxlayır, az qala onlara ağı deyib, ağlayır. Özümü qınadım ki, niyə dağa-daşa düşürsən, hazırca mövzudur, götür, yaz. Düzü gecənin bu vaxtı belə bir mövzunu ələşdirmək, kiminləsə qiyabi də olsa çək-çevir etmək, hansısa bir özündən müştəbehlə dartışmaq fikrimə haqq da qazandırmıram. Belə düşünsəm də, onlara bir-iki kəlmə deməyi özümə borc bildim.

Qurban bayramında bir qaragöz toğlunun, bir təpəl keçinin, bir kinli dəvənin və ya boynuyoğun bir buğanın kəsilməsinə, boğazına bıçaq çəkilməsinə etiraz edənlərə, bunu heyvan haqlarının pozulması adlandıranlara baxanda adam qəzəblənsə də, ürəkdən gülmək də istəyir. Nədən ki, hər yarağımız bitmişdi, qalmışdı bircə saqqal darağımız. Yəni deməyim odur ki, niyə siz heyvanların dərdini çəkirsiniz, amma insanların dərdini çəkməkdə xəsislik edirsiniz? Yazıq deyilmi bu qoyun, necə qıyırsınız bu keçiyə deyənlərin çoxu bir gün ət yeməsələr, inandırım ki, evdəkilərin qulaqlarını çeynəyərlər. Bir az ət qıtlığı ola, mən onda bunların halını xəbər alaram. Soruşaram ki, qaqaş, burnun niyə yerlə gedir, gəl, gedək bir-iki lülə yeyək, tikə yeyək, yağlı dolma, quyruqlu piti, qızartma, bozartma, pörtləmə, canım sənə desin ətli xəngəl, ətli qutab yeyək – sadaladıqca qurtarandımı ət xörəkləri – meylin çəkirmi? Elə bilirsən bu heyvan aşiqi etiraz edəcək. Əsla, ətin yağlı yerindən yeyib, üstündən də bir xoruzquyruğu, pürrəngi çay vurub, kaş hər gün belə olaydı deyəcək. Bu yerdə deyiblər – "Sufi soğan yemir, görsə qabığını da qoymur". Ətdən yeyə-yeyə heyvanbazlıq edənlər, kəsilən heyvanların yasını saxlayıb qara bağlayanlar bir şeyi anlamalıdırlar ki, milyon illərdir insan ət yeyir. Sonradan yaranan vegeterianlığın bura dəxli yoxdur. Kiminsə ət yeməməsi, ətdən imtina etməsi bəşəriyyətin ət və ət məhsullarından çəkinməsi demək deyil. Kiminsə pendir yeməməsi, almadan imtina etməsi, başqa bir təamdan iyrənməsi o deməkdirmi ki, bu təamlar pisdir? Əsla. Elə ət yeməkləri də bu qəbildəndir. Bu məsələnin bir tərəfidir.

Digər tərəfdən bu bir dini bayramdır, gələnək-görənək məsələsidir. İndi gəlin mən də sizə qoşulum, Qurban bayramında heyvanların kəsilməsinə etiraz edək. Bəs niyə toylarımızda kəsilən heyvanların yasını saxlamırsınız? Toyuqların, balıqların, bildirçinlərin kütləvi şəkildə qırılması üçün vay-şivən qoparmırsınız? Ehsan adı ilə dirilər üçün verdiyimiz qonaqlıqlarda yan-yana düzdüyümüz heyvanların haqqını-hüququnu niyə qorumursunuz? İslam coğrafiyasında hər gün axıdılan insan qanının durdurulması üçün niyə ayağa qalxmırsınız? Yüz milyon insanı qaçqına çevirənləri niyə dayandırmırsınız? Dünyanı silahlandırıb, insanların kütləvi qırğınını təşkil edənlərə qarşı durmağı niyə düşünmürsünüz? İş müsəlmanın Allah yolunda qurban kəsməsinə gələndə şivən qoparıb heyvancıl olursunuz, heyvan sevginiz kəlləçarxa vurur.

Və elə düşünməyin ki, Qurban bayramında bir heyvanı Allah yolunda kəsənlər sizin qədər düşüncəyə sahib deyillər. Əksinə, onlar sizdən də əvvəl hər canlının yaşama haqqının olduğunu bilirlər, o cümlədən də, sizdən fərqli olaraq sizin boyunu sevdiyiniz qoyunların, keçilərin, dana və dəvələrin də haqqını-hüququnu tanıyırlar.

## DİNİ MƏSƏLƏLƏR ÜZRƏ AGENTLİK MÜSƏLMANLARI QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ TƏBRİK EDİB

Gürcüstanın dini məsələlər üzrə Dövlət Agentliyi bütün müsəlmanları böyük Qurban bayramı münasibətilə təbrik edib. Bu münasibətlə agentlik bəyanat yayıb.

"Sentyabrın 12-15-də müsəlmanlar üçün böyük əhəmiyyəti olan Qurban bayramı qeyd edilir. O, Allaha sədaqət ideyasına əsaslanır, onun bütün mahiyyəti xeyriyyəçilik və ehtiyacı olanlara kömək etməkdən ibarətdir.

Dini məsələlər üzrə dövlət agentliyi Qurban bayramı münasibətilə bütün müsəlmanları təbrik edir, onlara uğur, xeyirxahlıq və ruhi rahatlıq arzulayır" – bəyanatda deyilir.

## 50 BAŞ QURBANLIQ QARAMAL KƏSİLƏRƏK EHTİYACI OLANLARA PAYLANDI



Məlumdur ki, Qurban bayramı Allaha sadiq olanların bayramıdır və üç gün davam edən bu bayram boyunca dünyanın əksər bölgələrində müsəlmanlar Allah yolunda qurban kəsir, qurban kəsilmiş heyvanların ətindən ehtiyacı olanlara, əlillərə, kimsəsizlərə pay göndərirlər.

Yarandığı dövrdən Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı hər qurban bayramında imkansız ailələrə yardım məqsədilə qurbanlıq heyvanların kəsilməsinin təşkilatçılığını öz üzərinə götürməyə çalışır. Bu ilki Qurban bayramında da Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının təşkilatçılığı və Əziz Mahmud Hüdayi Vəqfinin maadi dəstəyi ilə 50 baş qaramal qurban kimi kəsildi. Qurbanlıq heyvanların əti Kvemo-Kartli bölgəsinin Tbilisi də daxil olmaqla Rustavi, Qardabani, Marneuli, Bolnisi, Dmanisi kimi şəhər və rayonlarında, o cümlədən də Kaxeti, Samsxe-Cavaxeti bölgələrində ehtiyacı olanlara, qurban kəsməyə imkanı olmayanlara və kimsəsiz ailələrə paylandı.

Təşkilatımız ənənəsinə sadiq qalaraq, bu bayramda da Rustavi şəhərindəki Qocalar evini, əlil və kimsəsiz uşaq evlərini də unutmadı. Onlara da qurban ətindən pay ayrıldı.



## ALMAN ŞİRKƏTİ HENKEL QARDABANİDƏ ÖZ ZAVODUNU AÇDI



Dünya şöhrətli alman şirkəti Henkel Qardabanidə özünün yapışdırıcı tikinti materialları zavodunu açıb.

Zavodda istehsal olunan məhsullar Gürcüstanın daxili bazarında satılmaqla yanaşı, Azərbaycana və Ermənistana da ixrac olunacaq.

Kimya sahəsində dünya liderlərindən biri olan alman şirkəti Henkel Gürcüstanla ilk dəfə 2013-cü ildə maraqlanıb. 2013-2014-cü illərdə şirkət Gürcüstanda investisiya mühitini öyrənmiş və dövlət və şəxsi mülkiyyətdə olan ərazilərin alınmasını araşdırmışdır.

8 milyon dollar sərmayə qoyulmuş müəssisədə 35 nəfər işlə təmin olunacaq.

Gürcüstan baş naziri Georgi Kvirikaşvili müəssisənin açılış mərasimində iştirak edib.

"Bu, Almaniya və Gürcüstan arasında iqtisadi əməkdaşlığın parlaq nümunəsi olacaq daha bir Made in Georgia məhsuludur… Gələcək dörd ildə Gürcüstan infrastrukturlarının müasirləşdirilməsi sahəsində bizim çox iddialı planlarımız var" – Kvirikaşvili deyib.

O, Gürcüstanda belə bir zavodun açılmasını ölkədə cəlbedici biznes mühitinin olması ilə əlaqələndirib. Hökumət başçısı şirkətin nümayəndələrini Henkel-in 140 illik yubileyi və Ceresit brendinin 110 illiyi münasibətilə təbrik edib.

## SOCAR AZƏRBAYCANLI TƏLƏBƏLƏRİN TƏHSİL HAQQINI ÖDƏYƏCƏK

Gürcüstanda SOCAR-ın maliyyə dəstəyi ilə təhsil alan azərbaycanlı tələbələrin təhsil haqqının ödənilməsi ilə bağlı heç bir problem olmayacaq.

"Report"un Gürcüstan bürosu xəbər verir ki, bunu Gürcüstanda Marneuli rayon ictimaiyyəti ilə görüşdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev deyib.

"Bizdən asılı olmayan və müəyyən səbəblərdən tələbələrin təhsil haqqının ödənişində problemlər yaşanıb. Amma artıq həmin problemlər öz həllini tapıb və tələbələrin təhsil haqları ödəniləcək", - SOCAR prezidenti əlavə edib.

## "SOCAR-MAKDONALDS" DÜNYANIN 10 ƏN GÖZƏL YANACAQ DOLDURMA MƏNTƏQƏSİ ARASINDADIR

Britaniyanın "Teleqraf" nəşri tərəfindən dərc edilmiş reytinqə əsasən SOCAR-ın Batumidə yerləşən kompleks yanacaq doldurma məntəqəsinə məxsus "SOCAR-Makdonalds" dünyanın 10 ən gözəl yanacaq doldurma məntəqəsi arasındadır.

"SOCAR Georgia Petrolium"-un direktoru Davit Zubitaşvilinin açıqlamasına görə, sözügedən məntəqə öz dizayn və arxitekturasına görə həqiqətən də nadirdir. Bu kompleksdə həm yanacaq doldurma məntəqəsi, həm də dünyanın ən sürətli qida obyekti Makdonalds yerləşir.

İkinci mərtəbədə 600 m2-lik gül bağı salınıb ki, bu da istifadəçi üçün xüsusilə cazibədardır. Məntəqənin ərtafında müvafiq formada düzəldilmiş 3000 m2-lik su hovuzu isə istirahət edənlərin zövqünü oxşayır. SOCAR-a məxsus obyekt daha öncə də Makdonalds restoranlar şəbəkəsinin dünyada mövcud olan 33000 obyekti arasında bir nömrəli hesab edilib.



## AVROPAYA VİZASIZ GEDİŞ-GƏLİŞDƏN GÖZLƏNTİLƏRİMİZ

**Ay can, Avropaya gedirik, ay maşallah, yolumuz Avropayadır, urrra, daha avropalı olacağıq. Neçə vaxtdır qulaqlarımız bu və ya buna bənzər yüzlərlə gap-söz eşitməkdədir. Neçə vaxtdır deyəndə də, 2014-cü ilin iyunun 27-də assosiyalaşdırma haqqında saziş imzalanandan bu yana qulağımızdan qut olmuşuq. Televiziyanı açırsan bu sazişdən danışır, radionu açmağa peşmansan, bu xəbəri xırdalamaqla məşğuldur, qəzet bundan yazır, kitab bundan bəhs edir, sosial şəbəkələr "Avropalı gəlin" havasına köklənib, daha bunu saymaqla qurtaran deyil. Biri kərə deyir, biri kürə.**

Məni isə cəmi bir sualın cavabı maraqlandırır: əcaba, Avropada yel əsib, qozmu tökülüb, biz onu dənləməyəmi gedirik? Bu sualın cavabını axtara-axtara mən bir çox gizli məqamlara, sirli olaylara tuş gəldim və indi oturub onları bircə-bircə qulluğunuza ərz edəcəm. Və ərz etdiklərimi də sualımın cavabı hesab etməniz ricasında bulunacam. Bilirəm siz də ürəyi yumşaqlıq edib, mənim bu xahişimi yerə salmayacaqsınız.

Bəri başdan orasını deyim ki, Avropa adlanan məkanda Avropa İttifaqı və ya Avropa Birliyi adlandırılan bir təşkilat var. Bu məkan öz qoynunda 500 milyondan çox adamı barındırır. Gürcüstan kimi kiçik bir ölkənin bu məkana can atması, bu məkanın bir parçası olmağa səy etməsi çox əladır. Nədən ki, bacara bilsək biz Avropa bazarına çıxmaqla istehsal etdiyimiz hər şeyi – sucuqdan tutmuş sulquna qədər – həmin o 500 milyonluq istehlakçıya çatdıracağıq. Avropalılar da daha holland pendirini bir tərəfə tullayıb, bizim reseptlə hazırlanan sulquna daraşacaqlar. Bütün bunlar bizim üçün əladır, hələ bir desən, superdir.

Gəlin bir baxaq, görək Avropa İttifaqına vizasız gediş-gəlişlə biz nə əldə edəcəyik, qazancımız nədən ibarət olacaq? Hansı ölkələrə vizasız gedə biləcəyik, hansılara getməmiz mümkün olmayacaq? Bəri başdan deyim ki, Avropa İttifaqına/ Şengen ölkələrinə getmək üçün ölkəmizin vətəndaşları biometrik pasporta malik olmalıdır. Bu pasporta sahib olanlar vizasız rejimin tətbiqindən sonra Şengen zonası ölkələrinə, daha doğrusu Avropa İttifaqına daxil olan 22 ölkəyə və İttifaqın 4 qeyri-üzv ölkəsinə gedə biləcəklər. Böyük Britaniya və İrlandiya burada istisna təşkil edir, yəni vizasız rejimin bu ölkələrə dəxli yoxdur. Bu ölkələrə getməmiz üçün biz yenə də viza dalınca qaçmalı olacağıq.

Vizasız rejimin bizə verəcəyi digər üstünlüklər nədən ibarətdir, biz bu rejim şəraitində Avropa ölkələrində nə qədər qala bilərik və ya necə hərəkət edə bilərik? Avropa ölkələrinə gediş-gəliş bizə qısamüddətli səfərlər vəd edir, yəni Avropa İttifaqına/Şengen ölkələrinə uzunmüddətli səfərlər etmək bu rejimin şərtlərinə daxil deyil. Daha doğrusu Gürcüstan vətəndaşları təhsil, iş, müalicə kimi uzun müddət tələb edən hallarda vizasız rejimdən yararlana bilməyəcəklər. Vizasız rejim qüvvəyə mindikdən sonra biz Avropada 180 günün 90 gününü qala bilərik. Belə ki, biz bu 90 günü bir dəfəyə də qala bilərik, hissə-hissə də, yəni 180 gün ərzində Avropa İttifaqında 90 gün qalma haqqımızdan 90 gün dalbadal qalmaqla da, dəfələrlə gedib-gəlməklə hissə-hissə də istifadə etmək imkanımız var. Və biz 90 gün ardıcıl olaraq Avropa İttifaqında qaldıqdan sonra, bizim növbəti səfərimiz yalnız 90 gündən sonra baş tuta bilər.

90 gün ərzində Gürcüstan vətəndaşları qısamüddətli vizasız gediş-gəlişdən müxtəlif məqsədlər üçün istifadə edə bilərlər. Məsələn, Avropa İttifaqına turist səfərlərinə getmək, orada yaşayan qohum-əqrabaya, dost-tanışa baş çəkmək, işgüzar görüşlərdə, danışıqlarda, beynəlxalq konfranslarda, seminarlarda, simpoziumlarda və ya sərgilərdə, qısamüddətli təhsil kurslarında, treninqlərdə, təhsil və staj proqramlarında, mədəni, elmi tədbirlərdə iştirak etmək, qısamüddətli tibbi kurs, hətta əməliyyatlardan yararlanmaq mümkündür.

Avropa İttifaqı ölkələrinə getmək üçün biometrik pasportdan əlavə digər sənədlər də tələb oluna bilər. Məsələn, səndən Gürcüstana qayıdış bileti, mehmanxananın əvvəlcədən saxladılmasını təsdiqləyən sənəd, səyahət sığortası, maliyyə təminatını təsdiq edən sənəd və s. göstərməni xahiş edə bilərlər. Sərhəd xidmətinin nümayəndələri sənin səfərinin məqsədilə maraqlanmaq hüququna da malikdirlər. Bütün bu sadalananlardan əlavə, səfər edənin adı ictimai asayiş, sağlamlıq, daxili təhlükəsizliyi pozan şəxslərin siyahısında olmamalıdır. Əks təqdirdə Avropaya gedən yollar üzünə bağlanacaq. Əgər Aİ/Şengen ölkərindən hər hansı birində 1 ildən artıq cinayət işi üzrə azadlıqdan məhrum edilmisinsə, Avropaya getmək sevdasından gərək əl çəkəsən. Avropa ölkələrindən qovulman barədə qərar olduqda da Avropa qapılarını sənə açmayacaq. Əgər nəyə görəsə adın Avropaya girişi qadağan olunmuş şəxslərin siyahısına düşübsə, Avropanın adını çəkmə, səni arzuolunmaz şəxs kimi Avropanın həndəvərinə də yaxın qoymayacaqlar. Bu, belə.

Vizasız gediş-gəliş rejimində çalışmaq lazımdır ki, getdiyin ölkənin qanunlarına hörmət edib, heç bir qanun pozuntusuna yol verməyəsən, 90 gündən artıq Avropada qalman sənin qovulmana və bir də bu məkana beş il ayaq basmaman anlamına gəlir. Sənə qarşı inzibati cəzadan da istifadə edib, 3 min avro cərimləyə də bilərlər. Vizasız rejim Gürcüstan vətəndaşına işləmək hüququ vermir. Nəbadə qeyri-leqal yolla işləməyə cəhd edəsən, bu zaman sən Aİ-dan qovulacaqsan və sənin Avropa ölkələrinə girişinə qadağa qoyulacaq.

**...bax, canım-gözüm, mən bildiklərimi dedim, bundan sonrasını özün bilərsən. Nədən ki, Avropa da, elə Avropa deyil, sən arzuladığını istədiyin vaxt verə. Axı, Avropanın öz standartları, öz ölçüləri, öz meyarları var. Çalış bunları unutma. Deyilənlərin yalançısıyam, eşitdiyimə görə vizasız gediş-gəliş rejiminin qüvvəyə minməsinə sayılı günlər qalıb. De, işin avand, Avropaya gedən yolun uğurlu olsun!..**

A.M. DƏLİVƏLOĞLU

## PARLAMENTDƏ VƏTƏNDAŞ ƏMƏKDAŞLIĞI MƏRKƏZİ YARADILDI

Şəffaflıq və cəmiyyətlə qanunverici dialoqa yardım məqsədilə Gürcüstan parlamentində Vətəndaş Əməkdaşlığı Mərkəzi açılıb.

Mərkəzi açan parlament sədri David Usupaşvili bəyan edib ki, artıq bu məkan parlamentlə əməkdaşlıq üzrə layihəsi olan, parlamentdə müəyyən tədbir keçirmək, deputatlarla görüşmək, onları maraqlandıran məsələləri öyrənmək, təşəbbüslə çıxış etmək və fikirlərini bölüşmək istəyən təşkilatlar üçün açıq olacaq.

"Vətəndaş Əməkdaşlığı Mərkəzi parlamentlə uzunmüddətli, məhsuldar və hər iki tərəf üçün əlverişli olan əməkdaşlığı arzulayan bütün təşkilatlar üçün açıq olacaq" – Usupaşvili bildirib.

Tədbir hər il sentyabrın 12-dən 18-dək dünyanın bir çox ölkəsində keçirilən Qlobal parlament şəffaflığı (Global Legislative Openness Week) həftəsi çərçivəsində baş tutub.

## GÜRCÜSTANDA ƏHALİNİN YOXSULLUQ SƏVİYYƏSİ AZALIR




Dünya Bankının apardığı "Gürcüstanda yoxsulluq səviyyəsinin son azalma meylləri" araşdırmasının nəticələrinə görə, ölkənin sosial cəhətdən müdafiəsiz vətəndaşlarının sayı durmadan azalır.

2014-cü ildə 32,3% (1,4 milyon nəfər), 2013-cü ildə 36% (1,6 milyon nəfər), 2012-ci ildə 42,5% (1,9 milyon nəfər), 2011-ci ildə 48% (2 milyon nəfər) əhali yoxsulluq həddindən aşağı yaşayırdı.

2012-ci illə müqayisədə 2014-cü ildə yoxsul əhalinin sayı 500 000 nəfər azalıb.

Dünya Bankının məlumatına görə, 2010-2014-cü illərdə yoxsulluğun azalması iqtisadi fəaliyyət nəticəsində əldə edilən gəlirlərlə bağlıdır ki, bu da 2010-cu ilədək olan göstəricilərdən köklü şəkildə fərqlənir.

Dünya Bankı yoxsulluq səviyyəsinin azalmasını iqtisadi fəaliyyətlə məşğul olma mümkünlüyünün, dövlətin kənd təsərrüfatına diqqətinin və nəzarət siyasətinin rolunun artması ilə əlaqələndirib.

Dünya Bankı bir adamın yaşamasının sutkada 2,5 dollardan aşağı olmasını yoxsulluq səviyyəsindən aşağı kimi qiymətləndirir.

Bankın ekspertləri Gürcüstanda yoxsulluq səviyyəsinin 2018-ci ilə doğru 6,8% azalaraq, 25,5% təşkil edəcəyini bildiriblər.

## GÜRCÜSTAN QAFQAZIN ƏN XOŞBƏXT ÖLKƏSİDİR

Qafqaz regionunda ən xoşbəxt adamlar Gürcüstanda yaşayırlar. Bunu "Ümumdünya xoşbəxtlik indeksi"nin (The Happy Planet Index) 2016-cı il üzrə tədqiqatının nəticələri təsdiqləyir.

Britaniyanın New Economic Foundation tədqiqat mərkəzi öz araşdırmalarını dörd ildən bir yekunlaşdırır. İndeksin tərtibçiləri hesablamalarda həyat keyfiyyəti, ömür uzunluğu və ekoloji vəziyyət kimi göstəricilərə əsaslanırlar.

2016-cı ildə Gürcüstan ən xoşbəxt ölkələr reytinqində 140 ölkə arasında İslandiya (39-cu) və Kiprlə (41-ci) qonşuluqda 40-cı yeri tutur. Bununla Gürcüstan öz mövqeyini 15 pillə yaxşılaşdırıb. Belə ki, 2012-ci ilin yekunlarına görə, Gürcüstan 55-ci yeri tuturdu.

Gürcüstan regionda yaxın qonşular arasında ən xoşbəxt ölkədir. Tədqiqata görə, Türkiyə 68-ci, Rusiya 116-cı, Ermənistan isə 73 yerdədir. Reytinqdə Azərbaycan göstərilmir.

Reytinqdə Gürcüstan Fransa (44-cü), Almaniya (49-cu), Slovakiya (59-cu), İtaliya (60-cı) və ABŞ (108-ci) kimi ölkələri də qabaqlayır.

Xoşbəxtlik indeksinə görə, postsovet məkanında Qırğızıstan 31-ci, Özbəkistan 51-ci, Belarus 102-ci, Qazxıstan 114-cü, Türkmənistan 134-cüdür.

Kosta-Rika (1-ci), Meksika (2-ci) və Kolumbiya (3-cü) dünya reytinqinin liderləridir. Toqo (138-ci), Lüksemburq (139-cu) və Çad (140-cı) isə xoşbəxtlik reytinqində sonunculardır.

Bu cür ilk reytinq 2006-cı ildə BMT tərəfindən Human Development Index (İnsanın inkişaf indeksi) adı ilə tərtib olunub. Onun məqsədi ölkənin öz əhalisinə nə dərəcədə uğurlu və ya uğursuz xoşbəxt həyat təmin etdiyini göstərmək idi.

## 2015-Cİ İLDƏ GÜRCÜSTANDA MÜXTƏLİF KATEQORİYADAN 172 MEHMANXANA AÇILIB



2015-ci ildə ölkədə 1225 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərib. Sakstatın məlumatına görə, 2015-ci ildə 172 mehmanxana istismara verilib.

2014-cü ildə mehmanxanaların ümumi sayının 15,3%-i, 2013-cü ildə 12,1%-i, 2012-ci ildə 9,3%-i, 2010-cu ildə 5,9%-i, 2010-cu ilədək isə 34,9%-ə qədəri inşa olunmuşdu.

Gürcüstanda mehmanxanaların 99,3%-i xüsusi, 0,7%-i isə isə dövlət mülkiyyətindədir. Özəl sektora aid mehmanxanaların 9,6%-i əcnəbi fiziki və hüquqi şəxslərə məxsusdur.

2015-ci ildə mehmanxanaların ümumi sahəsi 1,2 milyon kv.m., yaşayış nömrələrinin ümumi sahəsi 616 000 kv. m. təşkil edib ki, bu da 2014-cü ildəkinə nisbətən 23,5% çoxdur.

2015-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrdə 48,6 min nömrə olub. Bunun 23,1 minini sırf mehmanxana nömrələri təşkil edib.

2015-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrə 1,854 milyon adam gəlib. Bu göstərici isə 2014-cü ilə nisbətən 33,3% çoxdur.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARI SEÇKİLƏR ZAMANI 42 ÖLKƏDƏ SƏS VERƏ BİLƏCƏKLƏR

Xaricdə yaşayan Gürcüstan vətəndaşlarının parlament seçkiləriində iştirakı üçün dünyanın 42 ölkəsində seçki məntəqələri açılacaq. Bu barədə Mərkəzi Seçki Komissiyasının rəsmi saytında məlumat verilib.

Xarici ölkələrdə cəmi 57 seçki məntəqəsi açılacaq. Səsvermədə yalnız qanuni yollarla xaricdə olan Gürcüstan vətəndaşları iştirak edə biləcəklər. Daha çox seçki məntəqələri Yunanıstanda (6), Türkiyədə (3), Azərbaycanda (3), ABŞ-da (3) və Ukraynada (3) fəaliyyət göstərəcək.



# İRAN-SƏUDİYYƏ ƏRƏBİSTANI MÜNASİBƏTLƏRİ KÖLGƏSİNDƏ BAŞ VERƏNLƏR

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**İran İslam Respublikasının Ali dini lideri Seyid Əli Xameneyi müqəddəs Qurban bayramı ərəfəsində ölkəsinin vətəndaşlarının bu ilki həcc ziyarətini rəsmi olaraq qadağan etdi. Səbəb kimi isə keçən il dini ayinlərin həyata keçirilməsi zamanı təhlükəsizlik tələbləri və təşkilati məsələlərin yetərsizliyi nəticəsində Məkkə şəhərində baş verən basrıqda 169 İran vətəndaşının həlak olması göstərilir. Tehranın həcc ziyarətinə qadağa qoymasına Ər- Riyadın cavab reaksiyası gecikmədi. Səudiyyə Ərəbistanının Baş Müftisi iranlıları "müsəlman olmamaqla" suçladı. Hər iki ölkənin dini liderlərinin dini aksentdə qarşılıqlı olaraq bir-biri ilə "nəzakətli" davranması onsuz da İran və Səudiyyə Ərəbistanı arasında son bir neçə onillikdə yaşanan gərgin münasibətləri bir az da tarıma çəkəcəkdir. Hal-hazırda Tehranla Ər-Riyad arasında yaşanan gərilim məsələnin görünən tərəfidir. Əslində isə hər iki ölkə hakimiyyətinin üst eşalonunun siyasi kulisləri arxasında çevrilən oyunlar adıgedən dövlətlərin münasibətlərinin qaranlıq tərəfinə aydınlıq gətirir.**

Uzun zamandır ki, həm İran, həm də Səudiyyə Ərəbistanı islam dünyası və bölgədə liderlik uğrunda bir-biri ilə amansız mübarizə aparır. Çünki, İran körfəzi dövlətləri üzərində dominatlığı qəbul etdirmək hər iki ölkənin strateji maraqları çərçivəsinə daxildir. Bundan başqa neft ixracı siyasəti, Suriya və İraq məsələsi, ABŞ və Qərb dünyası ilə münasibətdə fərqli mövqe sərgiləmələri münasibətlərin dramatikləşməsinə təkan verir. Sözügüdən dövlətlərin strateji maraqlarını gerçəkləşdirmək üçün islamın sünni və şiəlik təriqətindən siyasi alət kimi istifadə etmələri isə təəssüf hiss doğurmaqdadır. Ortaya regional şiə ordusu yaradılması kimi bir fikrin atılması isə, Orta Şərqdə hərbi qarşıdurmaların tezliklə aradan qalxmayacağı mənasına gəlir. Buna qarşı Səudiyyənin yaratmaq istəyəcəyi və ola bilsin ki, artıq yartmağa başladığı digər ordunun ortaya çıxması ilə vəziyyətin daha da mürəkkəbləşəcəyi ehtimalını söyləmək mümkündür. Gərək ki, belə bir durum bölgədə öz strateji maraqlarını təmin etmək istəyən güclərin xeyrinədir.

Yaxın keşmişdə iki ölkə arasında zaman-zaman yaşanan gərginliyin üzərinə "barıt qoxusu"nun əlavə olunması bu coğrafiyada vəziyyətin düşündüyümüzdən də gərgin olduğuna dəlalət edir. 2012-ci ildə Yəmənin sabiq prezidenti Abdullah Salehin hakimiyyətdən uzaqlaşdırılmasında İranın dəstəklədiyi Husi hərbi qruplaşması bilavasitə iştirak etmişdir. 2015-ci ildə isə husilərin paytaxt Sənanı ələ keçirmələri ilə ölkə faktiki olaraq İranın nəzarətinə keşdi. Lakin, Səudiyyə krallığının ABŞ-dan dəstək alaraq legitim hakimiyyəti dəstəkləmək adı ilə Yəmənə hərbi müdaxiləsi, əslində İranla hibrid müharibə aparmaq anlamına gəlir.

Tərəflər gücləri bir-birinə təkcə dolayı yollarla müharibə aparmaqla nümayiş etdirməklə kifayətlənmirlər. Eyni zamanda Səudiyyə Ərəbistanının cari il üçün hərbi xərclərini artıraraq 64 milyard dollara çatdırması 10 milyard dollarlıq hərbi büdcəsi olan Tehrana hərbi dildə bir jestdir. Bu statistik göstərici üzrə Ərəbistan krallığı dünya ölkələri arasinda dördüncü yerdədir.

**İslam dünyasının iki nəhəng ölkəsi arasındaki gərgin münasibətlər şübhəsiz ki, narahatlıq doğurmaqdadır. Kənar qüvvələrin fitvası ilə bir-birinə qənim kəsilmiş İran və Səudiyyə Ərəbistanı islam coğrafiyasında sülhün bərqərar olunması prosesini ləngitməkdədir. Ən acınaqcaqlısı da odur ki, diplomatik və hibrid müharibələr "teatr"na cəlb olunmuş bu ölkələrin növbəti rol ifaları səhnənin "ssenari müəllifləri"nin istək və sifarişindən aslı olacaqdır. Vurğulanan bu məqamları nəzərə alaraq söyləmək olar ki, yaxın gələcəkdə İran və Səudiyyə Ərəbistanı arasında münasibətlərin istiləşməsi gözlənilmir.**

## KATOLİK MƏKTƏBİNİN MÜƏLLİMİ ŞAGİRDLƏRƏ QURAN OXUYURMUŞ

Avstraliyada Sidneyin qərbindəki katolik məktəbində tarix-coğrafiya müəllimi öz dərslərində şagirdlərə Qurandan hissələr oxuyurmuş. O, hər dərsinin 7-10 dəqiqəsini buna sərf edirmiş və şagirdlərin sözlərinə görə, pedaqoq onları məcburi qaydada qulaq asmağa vadar edirmiş. Valideynlər direktora izahat üçün müraciət ediblər. Bu barədə Daily Mail məlumat yayıb.

Christian Brothers' High School katolik kişi məktəbinin tarix və coğrafiya müəllimi Cess Pittard 7-ci sinif şagirdlərinə hər dərs müsəlmanların müqəddəs kitabından hissələr oxuyurmuş.

Bu, müxtəlif dinlərdən olan valideynləri pərt etmiş və onlar məktəbin direktoruna pedaqoqdan şikayət etmişlər.



Cess Pittardın özü bu duruma şərh verməkdən imtina edib. Təhsil müəssisəsinin başçısı Paul Konn isə Quran oxunmasının "yalnız akademik çalışma" olduğunu və müəllimin daha bu işlə məşğul olmadığını bəyan edib.

## DÜNYANIN ƏN VARLI ADAMI SƏRVƏTİNİ YOXSULLARA PAYLAYACAQ

İnformasiya texnologiyaları nəhəngi Microsoftun qurucusu Bill Qeyts var-dövlətinin 95%-ni xeyriyyə məqsədilə ehtiyacı olanlara paylayacaq. Bunu dünyanın ən zəngin adamı olan Bill Qeytsin özü deyib.

İtaliya mətbuatına açıqlama verən iş adamı atmağı planlaşdırdığı bu addımı sərvətinin ehtiyaclarından xeyli artıq qalmasıyla əsaslandırıb: "Uşaqlarıma yaxşı təhsil almaq imkanı verə bildiyim və onların həyatları boyunca pulla bağlı heç bir qayğılarının olmamasını təmin etdiyim üçün özümü şanslı hiss edirəm. Amma bu pulun 95%-i mənim və onların ehtiyaclarını ödəmələri üçün çoxdur. İzafi kapitalımdan başqalarına kömək üçün istifadə etmək istəyirəm".

60 yaşlı iş adamının bu xeyirxah təşəbbüsü ilk hadisə deyil. Məlumata görə, Bill Qeyts 2007-ci ildən bu yana xeyriyyə məqsədilə 38 milyard dollar xərcləyərək, 6 milyon yoxsulun həyatını xilas edib. Bill Qeyts 80 milyard dollarlıq sərvətiylə dünyanın ən zəngin insanı ünvanını illərdir əlində saxlayır. İş adamının sərvətinin 95%-i 76 milyard dollar təşkil edir. Bu vəsait Gürcüstanın 10-15 illik dövlət büdcəsi qədərdir.

## AVROPA MƏHKƏMƏSİ İŞ YERİNƏ ÇATANADƏK YOLDA İTİRİLƏN VAXTI İŞ GÜNÜNÜN BİR HİSSƏSİ HESAB EDİB

Avropa məhkəməsi iş yerinə çatanadək yolda itirilən vaxtı iş gününün bir hissəsi hesab edən qərar qəbul edib. Məlumata görə, bu, daimi ofisi olmayan, məsələn, evlərdə xəstə baxıcısı və ya kommivoyajer olanlara aid edilir.

İndi işə götürənlər tabeliklərində olanların iş qrafikini elə təşkil edəcəklər ki, gün ərzində onların birinci və sonuncu səfərləri olduqca az vaxt aparsın, sahə məntəqələri isə evlərinə yaxın olsun.

Qərar İspaniyada təhlükəsizlik sistemləri quraşdıran Tyco şirkətinin iştirakı ilə davam edən təhqiqat fonunda qəbul olunub. Belə ki, şirkət 2011-ci ildə özünün regional ofislərini bağladığından, onun əməkdaşları tapşırıqları yerinə yetirmək üçün ölkənin müxtəlif şəhərlərinə getməli olurlar.

## 9 SENTYABR BEYNƏLXALQ GÖZƏLLİK GÜNÜDÜR

9 sentyabr tarixi Beynəlxalq Gözəllik Günü kimi qeyd olunur.

Beynəlxalq Estetika və Kosmetologiya Komitəsi (SİDESKO) hər il 9 sentyabrın Beynəlxalq Gözəllik Günü elan olunması təşəbbüsü ilə çıxış etmiş və 1995-ci ildən etibarən hər il sentyabrın 9-u Beynəlxalq Gözəllik Günü kimi qeyd olunmağa başlayıb. Beynəlxalq Gözəllik Günü münasibətilə həmin gün bir sıra ölkələrdə gözəllik müsabiqələri keçirilir.

## DÜNYADA 50 MİLYONA YAXIN QAÇQIN UŞAQ VAR



Hazırda dünyada 50 milyon uşaq hərbi münaqişələr, banditizm, yoxsulluq və gerilik ucbatından qaçqına çevrilib.

Bu barədə UNİSEF-in son məruzəsində bildirilir.

BMT Uşaq fondunun (UNİSEF) hesablamalarına görə, dünyada 50 milyona yaxın uşaq öz vətənini tərk etməyə məcbur olub, onlardan 28 milyonu hərbi münaqişələr üzündən qaçqına çevrilib, 20 milyonu isə kasıblıq və pis yaşayış şəraiti ucbatından doğma yerlərini tərk edib.

Verilən məlumata görə, uşaqlar dünya əhalisinin üçdə birini təşkil etsələr də, qeyri-mütənasib olaraq bütün qaçqınların yarıya qədəri onların payına düşür.

Hərbi münaqişələr nəticəsində öz vətənini tərk etmiş 28 milyon uşağın 10 milyonu qaçqın statusu alıb, 1 milyonu sığınacaq axtaran sənədə sahibdir, öz ölkəsinin hüdudlarını tərk etməyən 17 milyon uşaq isə daxili köçkün şəxsdir.

Bildirilir ki, daha çox uşaq sərhədi müstəqil surətdə keçir. 2015-ci ildə 78 ölkədən 100 mindən artıq uşaq böyüklərin müşaiyəti olmadan sığınacaq almaq üçün müraciət edib.

## ABŞ-IN DÖVLƏT BORCU 19,5 TRİLYON DOLLARI KEÇDİ

Dünyanın supergücü hesab olunan ABŞ borc bataqlığında boğulur.

Onun dövlət borcu ilk dəfə 19,5 trilyon dolları keçib. Bu barədə ölkənin Maliyyə Nazirliyi məlumat yayıb.

The Washington Examiner-in yazdığına görə, indiki prezident Barak Obama hakimiyyətə gəldiyi gün dövlət borcunun ümumi həcmi 10,63 trilyon dollar olub. Beləliklə də, təxminən 8 il ərzində bu rəqəm 2 dəfəyə qədər artıb.

Obamanın səlahiyyətləri başa çatana kimi bu rəqəmin 20 trilyona qədər artacağı proqnozlaşdırılır.

## ALLAHA İMAN

***Yetkinlik çağına gəlmiş, ağlı olan hər kişi və qadına fərz olan əvvəlcə Allahı bilmək və ona inanmaqdır.***

***Allah vardır. Onun varlığını anlamaq və bilmək üçün özümüzə, kainata və kainatdakı yaradılış incəliklərinə və hər şeyin yerli yerində olmasına baxmaq kifayətdir.***

Kainatda heç bir şey özbaşına yaranmayıb. Onu yaradan və ona şəkil verən biri vardır. Geydiyimiz paltarın, istifadə etdiyimiz əşyanın, yaşadığımız evin, sürdüyümüz avtomobilin və s. bütün bunların bir ustası vardır. Bunun kimi bizi, bütün canlıları, kainatı və kainatdakı bu nizamı əlbəttə bir yaradan vardır. O yaradan Allahdır. Bizi yaradan və yaşadan Odur. Öldürəcək və təkrar dirildəcək olan da yenə Odur. Bu səbəblə bizim üçün ilk vəzifə, O uca yaradıcını tanımaq və Ona inanmaqdır.

Allah, vardır və birdir. Ondan başqa tanrı yoxdur. Qurani Kərimdə belə buyurulmaqdadır:

"İlahınız bir tək ilahdır. Ondan başqa ilah yoxdur. O, Rəhmandır, Rəhmdir."( Bəqərə: 163)

Kainatdakı ahəng və nizam, təbiətdəki qanunların bir-birinə uyğunluğu Allahın birliyinə, Onun heç bir surətdə ortağı olmadığına açıq bir dəlildir.

Qurani Kərimdə belə buyurulur:

"Əgər yerdə və göydə Allahdan başqa tanrılar olsaydı, yer və göy qətiliklə pozulub gedərdi. Deməк ki, Ərşin Rəbbi olan Allah, onların yaraşdırdıqları sifətlərdən münəzzəhdir."

(Ənbiya :22)

***Allaha iman ,onun sifətlərini bilməyə bağlıdır. O ,ancaq sifətləriylə bilinər və tanınar. Çünki Allahın şəxsini anlayıb, qavramamız mümkün deyil. Onsuz da, zatən Allah, bunu bizə borc olaraq buyurmamışdır.***

H, Hacıyev

## ÇOXİLLİK BAĞ SALMAQ ÜÇÜN GÜZƏŞTLİ KREDİT ALMAQ MÜMKÜNDÜR

Fermerlər çoxillik bağ salmaq üçün 20 min lar-idən (8,7 min dollar) 600 min dollaradək uzunmüddətli güzəştli aqroinvestisiya kreditlərindən istifadə edə bilərlər. Xəbəri Gürcüstan kənd təsərrüfatı nazirliyinin mətbuat xidməti yayıb. Fermerlər salınmış bağ məhsul verməyə başladıqdan sonra faizləri ödəyəcəklər. Aqrokredit 7 il müddətinə 15%-lə verilir və bunun 11%-ini dövlət ödəyir. Güzəştli mərhələ maksimum 5 ildir.



Maliyyə almaq üçün fermer kənd təsərrüfatı layihələrinin idarə olunması agentliyinə tingliyin yaradılmasına dair standartlara uyğun hazırlanmış plan və digər sənədləri təqdim etməlidir.

Bu təşəbbüslə kənd təsərrüfatı naziri Otar Daneliya (artıq Otar Daneliya sabiq kənd təsərrüfatı naziridir, onu bu vəzifədə Levan Davitaşvili əvəzləyib – red.) və TBC bankın baş direktoru Vaxtanq Butsxrikidze çıxış ediblər. Xəbərdə bildirilir ki, bank ilk dəfə deyil ki, aqrobiznesin inkişaf etdirilməsinə yardım edir, 2013-cü ildən "Güzəştli aqrokredit" və "Gürcüstanda istehsal et" dövlət proqramlarının həyata keçirilməsində iştirak edir. Bu mərhələdə aqroinvestisiya kreditləri çoxillik bağ salmaqda maraqlı olan, ən azı bir hektar torpağı olan "Gələcəyini yarat" proqramının benefisarları üçün nəzərdə tutulur.

Layihə Gürcüstanın bütün bələdiyyələrində (Tbilisi, Rustavi, Batumi və Potidən başqa) həyata keçirilir. Fermerlər proqramdan bir neçə dəfə istifadə edə bilərlər.

## 8 AY ƏRZİNDƏ ÖLKƏMİZƏ GƏLƏN TURİSTLƏRİN SAYI 17,4% ARTIB

Baş nazirin birinci müavini, Gürcüstan İqtisadiyyat və Sabit İnkişaf naziri Dmitri Kumsişvili Milli Turizm İdarəsinin rəhbəri Georgi Çoqovadze ilə birlikdə 2016-cı ilin yay turist mövsümünün yekunlarından bəhs edib.

Kumsişvilinin sözlərinə görə, 2016-cı ilin ilk 8 ayı ərzində beynəlxalq səyahətçilərin ümumi sayı 4 247 729 nəfər olub. Bu, ötən ilin analoji göstəricisindən 322 075 nəfər və ya 8,2% çoxdur.

Kumsişvili bildirib: "Turist səfərlərinin sayı 1 851 917 nəfər təşkil edib, bu isə keçən ilin eyni dövründəkindən 274 751 nəfər və ya 17,4% çoxdur.

Nazirin sözlərinə görə, 2015-ci ilin yekun göstəriciləri üzrə Gürcüstanın beynəlxalq turizmdən gəlirləri 1,94 milyard dollar təşkil edib ki (artım 8,3%), bu ötən ilin analoji göstəricisindən 149 milyon dollar çoxdur.

"2016-cı ilin birinci rübnün göstəriciləri üzrə, Gürcüstanda xarici turizmdən gəlir 354,5 milyon dollar təşkil edib ki, bu, ötən ilin analoji göstəricisindən 48 milyon dollar artıqdır" – Dmitri Kumsişvili qeyd edib.

## GÜRCÜSTANDA PLANŞET İSTEHSAL OLUNACAQ



Televizorlar istehsal edən AG Telekom şirkəti planşet buraxmağı planlaşdırır. Bu barədə məlumatı şirkətin başçısı Mixail Qlonti verib.

Onun sözlərinə görə, istehsala təxminən 2017-ci ilin fevralında başlanacaq.

O, bildirib: "Biz mobil telefon istehsalına da başlamağı planlaşdırmışıq, lakin bu layihə maliyyə çatışmazlığı üzündən qeyri-müəyyən müddətə təxirə salınıb. Mobil telefon istehsalı üçün gərək olan ləvazimat çox bahadır və biz bir qədər dayanmağı qərara almışıq".

M. Qlonti qeyd edib ki, noyabrdan televizorların çeşidini, xüsusilə də smart-televizorların buraxılışını genişləndirmək nəzərdə tutulur.

"Televizorlarımız artıq ixraca gedib, biz Azərbaycana nümunələr yola salmışıq və yaxın vaxtlarda bu ölkəyə 400 aparat göndərilməsi haqqında müqavilə imzalayacayıq. Latviya ilə də danışıqlar aparılır" – şirkətin başçısı vurğulayıb.

Onun sözlərinə görə televizorların satışı fəal şəkildə gedir. O, yayda satışın bir qədər azalmasına baxmayaraq, payız yenə əvvəlki sürətə qayıdılacağına inandığını bildirib.

## İSLAM SÜLH VƏ BARIŞ DİNİDİR



Hacı BƏKİROĞLU
*hacihaciyev@hotmail.com*

**Tarixin ən qədim, ən uzun sürən və ən aktual qarşıdurmalarından biri olan Şərq-Qərb qarşıdurmasının qollarından biri də Qərb-İslam qarşıdurmasıdır. Qərb, tarixin hər dövründə öz xalqını İslamdan çəkindirəcək bir bəhanə mütləq tapmışdır.**

Qərbin qorxu arqumentlərindən biri də illərdir terror məsələsidir. Qərbdə yüksələn islamofobiyanın və immiqrant düşmənliyinin altında yatan ən əhəmiyyətli səbəblərdən biri də budur. Daha doğrusu terror Qərbin əlində demokratiya qılıncı kimi yellədiyi digər bir bayraqdır…

Yaxşı bəs İslam gerçəkdən də terroru himayə edirmi?

Əlbəttə bunun bir cavabı var – XEYR. İslamın adı belə barış mənasını verir. Bu terror kartını oynayanların da çox yaxşı bildiyi kimi, İslam və terror əsla yan-yana gəlməz, gələ bilməz. Bir dinin ki, peyğəmbəri "Bir adamı öldürmək bütün insanlığı öldürmək kimidir"deyirsə necə ola bilər ki, bu din terror bəsləsin? Əksinə İslam terrora ən böyük düşməndir.

11 sentyabr nə idi, həmin gün baş verənlər nə idi?

Amerika Birləşmiş Ştatlarında Dünya Ticarət Mərkəzi qüllələrinə edilən terror hücumları, o tarixdən bəri həm İslam dünyasının, həm də Qərbin gündəmindən düşmür. Barəsində illərdir danışılan hücumlar şübhəsiz bir terror hərəkətidir və onlarla günahsız insanın həyatını itirməsinə səbəb olmuşdur. Terrorist əl-Qaidə təşkilatının lideri Usamə bin Ladenin hücumu boynuna götürməsindən sonra, bütün dünyanın nəzərləri bir anda müsəlmanlara yönəlmiş, Qərbin tək hədəfi İslam olmuşdur.

Daha doğrusu bu hədəfə yönəldilmişdir. Media, dövlətlər, şirkətlər və vətəndaş cəmiyyəti quruluşlarının əliylə yayılan bu quru təbliğat məqsədinə də çatmışdır. ABŞ bu hücumları bəhanə edərək İraqda, Əfqanıstanda, Suriyada və digər İslam coğrafiyasında döyüşün şiddətini daha da artırmışdır.

Bir terror hücumu ilə bir cəmiyyət terrorçu elan edilmiş və bu hadisədən həmin cəmiyyəti insanların gözündə düşmən kimi göstərmək üçün istifadə edilmişdir. Seriallarda, jurnallarda, kitablarda, oyuncaqlarda və yeməklərdə belə bu mövzu üzərində işlənmişdir. Müsəlmanlar tarixin ən böyük zərbələrindən birini yaşamışdır.

Ən acınacaqlısı isə Qərbdə Müsəlman olmaqdır.

Qərbdə müsəlman olmaq, hələ Əlcəzair, Mərakeş, Əfqanıstan, İraq və ya Suriya kimi yerlərdən gələn mühacir olmaq sözün tam mənası ilə ən acıverici bir hərəkətlə qarşılanmaq deməkdir. Qərbin döyüşü Orta Şərqə çəkməsilə birlikdə, qan gölünə dönən İslam coğrafiyasından qaçışlar davam etməkdədir. Avropa və Amerika isə döyüşü buralara gətirən özləri deyilmiş kimi qaçaq-qaçaq oynamağa çalışmaqda və mühacirləri insan qüruruna yaraşmayacaq şərtlərdə yaşamağa məcbur etməkdədir.

Sərhədləri keçmənin onsuz da böyük bir dərd olduğu bəllidir. Sərhədləri min əzab-əziyyətlə keçənlərin isə başına nələrin gəldiyi də sirr deyil. Qaldı ki, hal-hazırda orada olan immiqrantların həyat şərtlərindən tutmuş cəmiyyətin onlara baxışına qədər, hər şey insana dərd olur.

Yəni terroru ixrac edən Qərb, coğrafiyanı qan gölünə çevirən Qərb, amma günahkar İslam…

Birlikdə yaşamaq həqiqətən bu qədər çətindirmi?

**Son illərdə unutduğumuz ən əhəmiyyətli şeylərdən biri də şübhəsiz bir yerdə yaşamaq mədəniyyətidir. Xilafət dövründə müsəlman, xristian, yəhudi və ya başqa inancdan olan insanlar hər hansı bir problem olmadan barış içində, birgə yaşayırdılar. Bu bir yerdə həyat sürmək, yaşamaq mədəniyyətinin kökünü də İslam dini meydana gətirirdi. Ancaq bu gün müsəlmanları bir-birinə qarşı qoyaraq, özləri kənardan və əlaltından müsəlmanların sərvətinə sahib çıxanlar, bunun adını bölgədə sülh və əmin-amanlığı bərpa layihəsi qoyurlar.**



# ATƏŞKƏS (innovasiya)

İBRAHİMXƏLİL

**Atəşkəs – münaqişə tərəflərinin razılığı ilə müəyyən müddət ərzində hərbi əməliyyatların dayandırılmasına deyilir. Məsələn, bu günlərdə Qurban bayramı ilə əlaqədar Suriyanın Hələb şəhərində baş tutan atəşkəs. Ümumiyyətlə, harada ki, atəş var, atəş xətti var, atəşkəs çox işə yarayır. Baxmayaraq ki, misilləmə misal üçün, BMT-nin vasitəçiliyi ilə keçirilən sülh danışıqlarında hər dəfə nədənsə filhəqiqət fasilələr yaranır. Və hər dəfə atəşkəs alınmayanda Mirzə Qələm daha çox əsəblərini sakitləşdirmək üçün Vidadidən oxuyur:**

***Atəşi-eşqindən dil kabab olmuş,***
***Dolanır, çevrilir pərvanələnmiş...***

Müxtəsəri, cəbhələrdə atəşkəs yarandı-yaranmadı, Mirzə Qələmin başında-beynində "atəşkəs" yaranmır ki, yaranmır! Amma gərək arazbarı uzaqlardan başlayam...

...Bir vaxtlar Hələb bazarlarında – olsun Dəməşq, misilləmə misal üçün, ya da Bağdad bazarları – nələr yox imiş? O necə deyərlər, quş iliyi, can dərmanı! Quş iliyi, can dərmanı olan yerlərdə də serotonin (həzz hormonları) azlığından şikayətmi ola bilərdi?..

Amma elə ki, bu qədər məsafə maneəliyinə rəğmən, Hələb tərəflərdə, Bağdad bəndərgahlarında yurd-yuva, küçə-bazar bombalanır, onda Hələbdən, Bağdaddan bu qədər arazbarı uzaqlarda, Əyriqarın ətəklərinə yaxın bəni-adamın (Mirzə Qələmin) yuxusu da itir... Yarıalmatək oxşar misal olduğu üçün bu yerdə nəsrdən nəzmə də keçmək olar; necə ki, oxşar minvalla arada-sırada sözlə deyə bilmədiyimizi sazla deməli olurduq:

***Bilirəm şirin yatırsan...***
***...Bağdad, Kərbəla yatır.***
***Bilirəm şirin yatırsan –***
***yuvası uçan belə yatır!***

***...Ümidimi yel ağzına***
***cəllad ətbala çıxardır.***
***Mənim yuvam Göyçədədir,***
***odur, dərd – bala çıxardır.***

Müxtəsəri, yurdu-yuvası uçmaqdan böyük dərd-azar arazbarı az-az olur...

Sonra eşidirəm ki, oraların müsibətləri ucbatından buralar bəni-adamına təcili olaraq psixoloq yardımı lazımdır. Psixika əbəs yerə "ruha aid olan" mənasını vermir ki! Amma Yuqoslaviyada, Qarabağda, Çeçenistanda, Abxaziyada, Suriyada, İraqda, Ukraynada – sərhesab siyahıya qalanda gərək onu digər qalaktikalara qədər uzadasan – hər yuvası, yurdu uçana psixoloq axtarılsa, gör onda yeganəmiz Yer üzünün "ruhi vəziyyəti"nin şəklini çəkmək üçün neçə sinir impulsları lazım olardı?..

...Ağrılı olan bir də burasıdır ki, yuvaları uçan oralar yuvası uçmayan buralara elə dərin təsir edir ki, buralar bəni-adamının yuvası, evi-eşiyi uçmasa da, başı üstündə damı salamat qalsa da çiynindəki başı, başındakı... neyron yuvaları "uçur"!.. Vahid Vəhdət Dünyasında nələr olmur!

Və buralar bəni-adamını psixoloqa aparırlar. Psixoloq da neyron – sinir sisteminin əsas funksional və quruluş vahidi; əsəb hüceyrələri – yuvaları nişangah altında olan buralar bəni-adamının yuvası uçan başının elektroensefaloqramına baxır, onun beyninin bioelektrik aktivliyini artırmağın yollarını arayır. Axı son zamanlar neyron yuvası "uçan"ın müalicəsində onun öz neyronlarının "melodiyası"nı, beyin "musiqisi"ni bərpa edib özünə dinlətməklə yaxşı nəticələr qazanılıb. Bioakustik korreksiya metodu adlanan metod haqqında eştmiş olarsan... Əlbəttə, toz-tozanaq sözümün təkrarı bunda deyil...

...Psixoloq buralar bəni-adamına təlqin eləməyə çalışır ki, bəs deməzsənmi, axı Suriya, İraq buralardan çox uzaqdır; oralarda yuvası uçanların aqibəti buralarda sənin yuvanı niyə bu minvalla uçurmalıdır ki?.. Axı istəsən də, istəməsən də Yer kürəsi yeganəmiz olsa da yer üzündəki maraqlar müxtəlifdir; özü də çox müxtəlifdir! Kimdir öz marağını – şəxsi maraq olsun, ya da ümumi, milli maraq olsun, ya da qeyri-milli; fərq etməz – bəşəriyyətin marağına qurban verən? Özün fikirləş: başımızdakı bir balaca yuvaya 100 milyarddan (!) artıq neyron niyə sığa bilir ki, o boyda böyük yuvaya-yurda – psixoloq mübarək əlləri ilə Süsən-Sünbül tərəfləri göstərir – Mirzə Mikrobla Mirzə Virus (hələ Mirzə Qoturu demirəm) sığmır?

Buralar bəni-adamı da durub müqəssir-müqəssir nə desin? Bu patologiyadan, xronoki stresdən, depressiyadan qurtulmağın üsulunu özü bilmir axı!

...Onsuz da göy üzünün altında çox zamanlar üslubu dayazda olanlar üzdə olur...

**P. S.**

**Mən buralar bəni-adamına deməkdən doymurdum ki, idrakın yüksək səviyyəsi rasional idrakdır, hissi idrak deyil. Yəni demək istəyirdim ki, gəl vaz keç, fikrin Hələbdə az qatır satsın! Hələ dəvəsi ölən ərəb bir yana, ərəbi ölən dəvənin dərdi sənə qalmayıb ki!..**

# TEZLİKLƏ ŞAGİRDLƏRİN REPETİTOR XİDMƏTİNƏ EHTİYACI OLMAYACAQ

Yaxın gələcəkdə Gürcüstan dövlət məktəblərinin yuxarı siniflərində təhsil elə səviyyədə olacaq ki, repetitor xidmətindən istifadə etməyə ehtiyac qalmayacaq. Bu barədə Gürcüstan təhsil və elm naziri Aleksandr Cecelava bəyan edib.

Nazirin sözlərinə görə, şagirdlər planlı şəkildə ali təhsil müəssisələrinə daxil olmaq üçün hazırlanacaq. Cecelava bildirib: "Faktiki olaraq 10-cu sinfədək adi, həyata hazırlayan məktəbdir. 11-12-ci siniflərdə isə əgər jurnalist olmağa hazırlaşırsansa, jurnalistika fakültəsinə daxil olmaq üçün hazırlığa köklənirsən, kimyaçı olmaq istəyirsənsə, kimya fakültəsinə".

Nazir bunu da əlavə edib ki, 9-cu sinfədək iki pillə – ibtidai və baza təhsili məcburidir, sonra şagird məktəbdə təhsili davam etdirib-etdirməməyə qərar verə bilər. Yuxarı siniflərin ləğv edilməsi nəzərdə tutulmur. Təhsil nazirliyinin məqsədi sonuncu siniflərdə şagirdlərin ali təhsil müəssisələrinə daxil ola bilmələri üçün fənlər üzrə hazırlaşmalarına kömək etməkdir. "Belə olduğu təqdirdə repetitorlara artıq gərək qalmayacaq" – nazir fikrini tamamlayıb.

# 400 MƏKTƏBDƏ ELEKTRON JURNALLARIN SINAĞI KEÇİRİLİR

Yeni tədris ilindən etibarən 400-ə yaxın ictimai məktəbdə adi müəllim jurnalı ilə paralel olaraq, müəllimlərin şagirdlərin dərsə davamiyyəti, qiymətləri və imtahanları barədə qeydlər edə biləcəkləri elektron jurnallar da meydana çıxacaq. Məlumatı edu.aris.ge. saytı yayıb.

Elektron jurnallar birinci mərhələdə pilot proqramda iştirak etmək istəyini bildirən məktəblərdə tətbiq olunacaq.

Elektron jurnalların köməyi ilə məktəb administrasiyası, pedaqoqlar və valideynlər istənilən vaxt şagirdin akademik yetirməsi haqqında dəqiq məlumat ala biləcək, dərs cədvəlinə baxacaq, davamiyyət və məktəbdə verilən tapşırıqlar barədə məlumat alacaq, habelə sinif rəhbəri ilə əlaqə saxlaya biləcəklər.

Elektron jurnalların təhlükəsizlik sistemi maksimum qorunacaq və onların sındırılması imkanı mümkün deyil.

Yeniliklə sərbəst işləmək üçün elektron jurnalların tətbiq edildiyi məktəblərin pedaqoqları müvafiq təlimlər keçiblər. Təhsil nazirliyi lazım gəldikdə elektron jurnallarda müəllimlərin işinə baxmaq üçün, habelə layihənin mənfi və müsbət tərəflərini üzə çıxarmaq üçün monitorinq aparacaq.

# MƏKTƏBLİLƏR QEYRİ-STANDART DƏRSLƏRƏ GEDƏCƏKLƏR

Yeni dərs ilindən Gürcüstan məktəblərində azad dərslər keçiriləcək. Belə məşğələlərin məqsədi təhsilin qeyri-standart metodlarının tətbiq olunması və pedaqoqlar üçün əlavə gəlir imkanları yaratmaqdır.

Təşəbbüs təhsil və elm naziri Aleksandr Cecelavaya məxsusdur. Gürcüstan hökuməti artıq bu yeniliyi bəyənərək, təsdiqləyib.

Azad dərs keçmək hüququnu almaq üçün pedaqoq təhsil nazirliyinin tezliklə elan edəcəyi qrant müsabiqəsinin qalibi olmalıdır.

"Prinsipcə, konsepsiya hamı üçün bəllidir. Ola bilər ki, şagirdləri məktəb proqramlarında olmayan xarici dil maraqlandırır. Dərs ekologiya, ətraf mühit, təhlükəsiz yol hərəkəti haqqında və ya demokratiya haqqında, istənilən məsələ barədə ola bilər" – Cecelava Gürcüstanın birinci ictimai kanalının efirində bəyan edib.



Əgər pedaqoq azad dərsin keçirilməsi üçün qrant alarsa, təhsil nazirliyi 3 min lari ayıracaq. Bunun 1000 larisi pedaqoqun özünə, 1000 larisi məktəbə və qalan 1000 larisi azad dərsin təşkil olunmasına sərf olunacaq.

Pedaqoq azad dərsi üç ay müddətində həftədə iki dəfə keçirməyə borcludur. Şagirdlər üçün belə dərslərdə iştirak etmək məcburi deyil, könüllü olacaq.

# TƏHSİL NAZİRLİYİ 573 207 KİTAB VƏ 1 777 072 DƏFTƏR ALIB

Gürcüstan Təhsil nazirliyi dərslik və dəftərlər alaraq, onların ictimai məktəblərə paylanılmasına başlayıb.

Kitab və dəftərlərin paylanılmasına Sameqrelo-Zemo Svaneti regionundan başlanılıb. Gürcüstanın bütün ictimai məktəblərində tədris prosesi sentyabrın 15-də başlayır, bütün məktəblər yeni kitab və dəftərləri sentyabrın 14-dək alacaqlar.

Nazirlik bu il 573 207 kitab və 1 777 072 dəftər alıb. Məktəb dərsliklərinə təqribən 2,2 milyon lari (922 min dollardan çox), dəftərlərə isə 4,2 milyon lari (1 812 000 dollardan çox) xərclənib. Dərs ilinin başlanğıcında bütün şagirdlər pulsuz kitab və dəftər alacaqlar.

Bir qədər əvvəl təhsil naziri Aleksandr Cecelava dövlətin bütün şagirdlərə istisnasız olaraq pulsuz bilgisayar və dərslik paylamasının əleyhinə olduğunu bildirmişdi. Cecelava pulsuz dərsliklərin paylanmasının bu il qüvvədə qalacağını, gələn il isə vəziyyəti dəyişməyə cəhd edəcəyini, bunun nəticəsində də nazirliyin kitab, dəftər alma xərclərinin son dərəcə azalacağını bildirib.

# 300 TƏLƏBƏ YATAQXANADA YER ALA BİLƏCƏK

Təhsil və elm naziri Aleksandr Cecelava Lisi gölü ətrafındakı tələbələr üçün nəzərdə tutulan yataqxanalara iki meyar üzrə seçim ediləcəyini bildirib. Birincisi, yüksək akademik müvəffəqiyyət , ikincisi, sosial cəhətdən imkanın olmaması.

Nazir tələbələrin yerlə təmin olunmasında ikinci məsələnin akademik müvəffəqiyyət olacağını vurğulayaraq, buraya ehtiyacı olanların şəhərciyi kimi yox, yüksək dərəcəli tələbələrin şəhəri kimi baxmağı xahiş edib.

# MÜƏLLİM ADI MÜQƏDDƏSDİR!



***Bəli, müəllim adı böyükdür, şərəflidir. Onu həmişə yüksək tutmaq lazımdır. Düzünü deyim ki, mənim bu addan çox xoşum gəlir və həmişə onun şərəfini yüksək tuturam. Bu sənət nə qədər gözəl, nə qədər faydalı bir sənətdir ki, biliyini insanlara verirsən, layiqli vətəndaşlar yetişdirirsən. Bundan gözəl sənət olarmı?***

Mən özüm 1963-1974-cü illərdə Kosalı orta məktəbində müəllim işləmişəm. Sonralar müəyyən səbəblərdən məktəbdən uzaqlaşmalı olmuşam. Amma yenə də xalq arasında məni bir müəllim kimi tanıyırlar.

Şagird-müəllim münasibətlərində müəyyən pərdə olmalıdır. Bu pərdə heç vaxt aradan qalxmamalıdır. Şagird müəllimini sevməli, ata-anası qədər ona hörmət bəsləməlidir. Müəllim-şagird münasibətləri arxasında dərin ehtiram, qarşılıqlı hüsn-rəğbət və səmimiyyət gizlənir. Bunu aradan qaldırmaq həm müəllim üçün, həm də şagird üçün bağışlanmaz, dözülməz haldır, əslində rüsvayçılıqdır. Təəsüf ki, belə hallara az təsadüf etmirik. Müəllimin şagirdləri ilə birlikdə papiros çəkməsi, yüngül, şit, yersiz hərəkət etməsi, eləcə də spirtli içki qəbul etməsi bağışlanılmaz səhvdir.

Müəllim adının hörmətdən düşməsində müəllimin özü günahkardır. Müəllimlik hara, oğurluq hara? Müəllimlik hara, rüşvətxorluq hara? Müəllimlik hara, əxlaq pozğunluğu hara? Müəllimlik hara, böhtançılıq, qara yaxmaq, imzasız məktublar yazmaq hara? Ümumiyyətlə, belə müəllimlər tənqid edilib, kollektivdə pislənməli və ifşa olunmalıdırlar. Mən onu qeyd etmək istəyirəm ki, mən də müəllimlərdən dərs və bilik almışam. Günü bu gün də onların adlarını hörmətlə yad edirəm. Onlar bizim əlimizdən tutub hərfləri, rəqəmləri yazmağı öyrədirdilər. Həmin müəllimlər artıq həyatda yoxdurlar. A. Vəliyev, P. Əliyev, U. Ömərov, Q. Xiyalov, M. Abbasov, O. Ömərov, R. İsmayılov, İ. Məmmədov, A. İsayev, A. Allahverdiyev, M. Həmidova, G. Qədirova, Y. Bünyadzadə, Y. Piriyev, İ. Məmmədov, F. Kərimov, Q. Kərimova, H. Musayev və adını çəkə bilmədiyim neçələri haqq dünyasındadırlar. Allah onlara rəhmət eləsin, onlar çox gözəl izlər qoyub gediblər.

Bir şeyi qeyd etmək lazımdır ki, müəllim qayğıkeş, həssas olmalıdır, öz şagirdinə diqqətlə yanaşmalıdır, çünki, bütün şagirdlər eyni xüsusiyyətə malik deyillər. Mənim dərs dediyim şagirdlərin əksəriyyəti ali məktəblərə qəbul olunub, hətta müəyyən elmi dərəcələrə yüksəliblər. Əhməd Məmmədov professordur, politexnik universitetində kafedra müdiridir, Aydın Əliyev kimya elmlər doktoru, Rzaxan Mahmudov coğrafiya elmlər doktorudur. Şagirdlərimin bir çoxu müəllim, həkim, mühəndis kimi fəaliyyət göstərir. N. Bağırov, Ə. Qasımov, T. Bağırov həkim, B. İsmayılova, R. Mustafayeva isə müəllim kimi çalışır. Şəmistan Vəliyev və Qəzənfər Qulamov Qardabanidə məsul vəzifə sahibidirlər.

Kosalı ictimai məktəbinin hazırkı kollektivi çox yaxşı təşkil olunub. Burada müəllimlik adını yüksək tutanlar, müəllim şəxsiyyətini, müəllim ləyaqətini ucaldanlar az deyil. Müəllim adını yüksəklərə qaldıran müəllimlərimiz indi də var, onlar el-oba içində yüksək qiymətləndirilirlər. M. Muxtaroğlu, A. Əliyev, M. Muradov, Ə. İsayev, D. İsmayılov, Ş. Xiyalova, R. İsmayılova, A. Qədirov, K. Həsənova, M. İskəndərova, T. Məmmədova, L. Ləzgiyeva, Z. Beradze, N. Nuliaşvili və başqaları buna nümunə ola bilərlər.

Rəhbərlik məktəbdə təlim-tərbiyə işini dügün təşkil etdiyinə görə, bu il 56 məzundan 21 nəfəri ölkəmizin müxtəlif ali məktəblərinə qəbul olunub. Onlardan bir neçəsinin adını çəkmək olar: F. Aşırov, B. Aşırov, Ş. Allahverdiyeva, S. Kərimova, A. Ləzgiyeva, A. Şamilova, A. Eminova, A. Məmmədova, E. Zeynalova və başqaları. Bu gözəl təşəbbüs yalnız Kosalı ictimai məktəbindədir. Rayon üzrə məktəbimiz birincilər sırasındadır. Bu, məktəb rəhbərliyinin təlim-tədris işini düzgün qurmasının, məktəbin direktoru Mahmud Mehdiyevin və dərs hissə müdiri Məmməd Xiyalovun müəllimlərlə pedaqoji işi yaxşı təşkil etmələrinin nəticəsində mümkün olmuşdur.

Hal-hazırda müəllimlərin verilən dərs proqramına yaradıcı yanaşmaları, dərslikdəki materiallardan yaradıcılıqla istifadə etmləri, metodların seçilməsində sərbəst hərəkət etmələri şagirdlərin asan qavramasına səbəb olur. Köhnəlmiş metodlardan aralanmaq və müəllimin öz üzərində işləməsi lazımdır. Şagirdin bir şəxsiyyət kimi yetişməsində böyük fəaliyyət göstərilməlidir.

***Müəllim müqəddəsliyi gənclərin, xüsusən tələbə və şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında, onların tərbiyəsində əsas rol oynayır. Bu yolu tutanların hər birinə uğurlar olsun!***

Haley LƏZGİYEV
təqaüdçü müəllim

## MƏHBUSLARA ALİ TƏHSİL ALMAQ İMKANI VERİLƏCƏK

Gürcüstan probasiya və cəzaçəkmə nazirliyinin hazırladığı qanunvericilik layihəsinə əsasən, məhbuslar ilk dəfə ali təhsil almaq imkanı qazanacaqlar. Bu barədə nazirliyin mətbuat xidməti məlumat verib.

Ali təhsil hüququndan müəssisələrdə azadlığa çıxmağa hazırlaşanlar və ya azadlıqdan məhrumetmə yerlərində aşağı risk daşıyanlar istifadə edə biləcəklər. Bildirilib ki, söhbət ali təhsilin birinci pilləsi olan bakalavr pilləsindən gedir. Təşəbbüsü probasiya və təhsil nazirlikləri hazırlayıb.




Nazirliyin məlumatına görə, hal-hazırda azadlıqdan məhrumetmə yerlərində müxtəlif maarifləndirici proqramlar və kurslar fəaliyyət göstərir, onları başa vuran məhbuslar müvafiq sertifikatlar alırlar. Bu cür proqramlar üzrə mindən artıq məhbus təhsil alır.

## ƏN GÜCLÜ ZƏHƏR – TƏRİF

Afayət AFİQ



**Bu gün sənin haqqında danışmağı, daha doğrusu sənin haqqında uzun zamandır düşündüklərimi dilə gətirməyi, "Yeni Yol" oxucuları ilə də paylaşmağı planlaşdırıram. Səndən yəni, dahi olduğuna, mükəmməl olduğuna inandırılıb, mənəvi baxımdan şikəst qoyulan insandan söz etmək niyyətindəyəm. Səni ənənəvi şikəstlərdən fərqləndirən və dillənməyimizə səbəb olan məsələ isə ondan ibarətdir ki, tək özün üçün ziyanlı deyilsən. Sən və sən qəbildən insanlar insanlığın, günü qara cəmiyyətin boynuna zəli kimi yapışıbsınız və heç cür əl çəkmək istəmirsiniz. Cümlələrim sənə az da olsa ayna ola bildisə, yəqin edirəm ki, özünü tanıdın və çox yəqin ki, məndən incidin, ya da ən azından boğazın qıcıqlandı... Ancaq, narahatlığımıza və yazmamıza səbəb olan problem isə sənin məndən incimə məsələndən ən azı yüz dəfə ağırdır, ən azı yüz dəfə böyükdür...**

Dəyərli oxucum, barəsində söz açdığımız insanlar özlərini tanımasa da, biz kifayət qədər yaxşı tanıyır və insanlar arasında onları tez sezə, seçə bilirik. Sən və mən, onların əlindən boğaza yığılmış vəziyyətdəyik. Biz cəhənnəm, gələcəyimiz bu insanların xəstəliyindən yayılacaq xəstəliklərin təhlükəsi altındadır. Bəhsimizin mövzusu olan həmdünyalılarımız əslində dünyanın ən şanssız insanlarındandırlar. Çünki, onların düşməni hamımızın düşmənindən daha böyük və hamımımızın düşmənindən daha amansız olub. Onların düşməninin əlini bəzəyən silah ən məsum, ancaq eyni zamanda da ən canalıcı olub. Onları heç bir antivirusun sağalda bilməyəcəyi şəkildə yaralayıblar. Dolayı yolla həmin insanlar cəmiyyətin də düşmənidirlər. O səbəbdən ki, bu yolxucu xəstəlik daşıyan meyvəni müdafiəsiz meyvə səbətinə atmaq kimi bir şeydir. Bu qəbildən olanlar insanları və insanlığı maddi, mənəvi işğal etməklə məşğuldurlar. Onlardan hər yerdə var. Onları xəstələndirib, cəmiyyəti öldürmək üçün insanların arasına atıblar. İndi cümlələrimin zamanda ifadəsini dəyişdirmək məcburiyyətində qalacam, çünki bu proses təkcə keçmiş zamanın məhsulu deyil, bu gün də davam etməkdə və gələcəyə doğru qol-budaq atmaqdadır. Sabah da analoji halların təkrar olunmayacağından sığortalı deyilik.

Ağlımıza gələcək istənilən sahədə aldadılmış və güzgüdə özünü olduğundan daha böyük, parlaq görən insanlara rast gəlmək mümkündür. Onu da qeyd etmək lazımdır ki, bu insanlar son zamanlarda kütləvi şəkildə yayılırlar. Bu səbəbdən də sözügedən xəstəliyi damcı infeksiyalarına aid etsək yanılmış olmarıq. Qrip və Tərif... Təsir sahələrini nəzərə alsaq, sinonimdirlər. Altı boş təriflər vasitəsi ilə mənəvi baxımdan qol-qanadı sınmış, gözü çıxarılmış və kütlüyə məhkum edilmişlər hər an qarşımıza çıxaraq özlərinin əlçatmaz zirvə olduğunu iddia etməklə, bu zirvəni yaşatmaq üçün mübarizə aparmaqla məşğuldurlar. Onlar ən çox sosial-siyasi sahələri zəbt ediblər. Kimisi yazıçı olduğuna inandırılıb, kimisinə də deyiblər ki, bu aləmdə səndən o yana aşbaz yoxdu, bəziləri özünün uydurma natiqliyinin kölgəsində batıb qalıb, bəziləri də günəşin yaydığı işığı özünün səpələdiyini hesab edir, biri də, viranə bir kənddə, dağınıq bir otaqda fırlanan balaca "kreslosunu" Roma Papasının kreslosu zənn edir...

Bütün bunlardan mənə nə, sənə nə, bizə nə deyirsiniz? – eşidən kimi oluram. Ancaq, mənə də, sənə də, bizə də çox şey, çox dəyərli oxucum. Bütün bunlardan bizə çox şey... Yəni, dırnaqarası böyük adamlar, satınalma diplomları, yalvar-yapış əldə edilmiş medalları və tərifləri, hətta haqlarında sifarişlə yazılan kərpic boyda kitabları ilə insanların haqlarını işğal etməklə məşğuldurlar... Elə ki, başımıza kərpic atıb yarsalar, daha yüngül qurtulmuş olardıq. Onlar təkcə bu günümüzün deyil, həm də gələcəyimizin başına corab hörürlər. Yalanları ilə gerçəklərimizin belində od qalayan da elə həmin onlardır. Bu "məşhurlar" , bu "alilər", "dahilər" , "müdriklər" onlara hörmət edilməsini istəyir, bəzən də tələb edirlər. Hər yerdə atəşli, hissli çıxışları ilə fərqlənir, sözün əsl mənasında başqalarına qan uddururlar. Bircə anlıq dayanıb özlərinə kənardan baxa bilsələr, yox olarlar, o dərəcədə ki, utanclarından olan ətləri yerə tökülər...

**Ancaq, mən saydığımı sayım, gör fələk nə sayır, o insanlar heç utanarmı, heç dayanıb özlərinə qıraqdan baxarmı?.. Əslə... Onları ilanın zəhərlisi sancıb... Onları heç vaxt qurtula bilməyəcəkləri şəkildə tərifləyiblər...**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 sentyabr 2016-cı il
№017 (31)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "ახალი გზა" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## AZƏRBAYCANLI GƏNC AVSTRALİYADA ELMİ JURNALIN BAŞ REDAKTORU SEÇİLİB



"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Avstraliya Milli Universitetində antropologiya ixtisası üzrə təhsil alan İlkin Əliyev bu ali məktəbin "The Toad" jurnalına əsas redaktor seçilib.

"The Toad" Avstraliya Milli Universitetinin çoxsahəli akademik nəşri kimi davamlı olaraq dərc ediləcək. Jurnalın həm Avstraliya Milli Kitabxanasında, həm də Milli Universitetin kitabxanasında saxlanılması nəzərdə tutulur.

Ümumilikdə 180 səhifədən ibarət olacaq jurnalda magistr və doktorantların, eyni zamanda, digər əlaqəli şəxslərin yalnız xüsusi tələblərə cavab verən çoxsahəli akademik məqalələri yer alacaq.

İlkin Əliyev bildirib ki , jurnalın gələcək saylarında Azərbaycan həqiqətləri, xüsusilə Qarabağ reallıqları haqqında elmi yazılar dərc olunmasına də xüsusi önəm verəcək.

## AZƏRBAYCANLI BİLİCİLƏR TBİLİSİ KUBOKUNUN SAHİBİ OLDULAR

Balaş Qasımovun komandası beynəlxalq intellektual oyunlar festivalının qalibi olub.

"Tbilisi açıq kuboku" festivalına məşhur bilicilər, o cümlədən də Moskvanın tanınmış "Nə? Harada? Nə zaman?" klubunun oyunçuları toplanmışdı. Bütövlükdə yarışlarda iştirak etmək üçün Tbilisiyə 50-yə yaxın komanda gəlmişdi.

Artıq 20 ildən artıqdır ki, Gürcüstan paytaxtında belə geniş tərkibli turnirlər keçirilir. Bu il turnir başqa ad altında keçrilisə də, özünün iyrimi illik ənənələrini qoruyub saxlaya bilib.

"Nə? Harada? Nə zaman?"ın Tbilisi turnirində Balaş Qasımovun komandası ən yaxın rəqibini 6 xal qabaqlayaraq, inamlı qələbə qazanıb.




"Breyn-rinq" turnirində isə Nigar İbrahimovanın başçılıq etdiyi digər Azərbaycan komandası bilik yarışmasının qalibi olub.

## MALİYYƏ NAZİRİ DÜNYA ÇEMPİONUNU MƏĞLUB ETDİ



Bakı Şahmat Olimpiadasında sensasiya baş verib. Latviyanın qızlardan ibarət milli yığma komandasının üzvü, hazırda Latviya Respublikasının maliyyə naziri vəzifəsini tutan Dana Reyznietse-Ozola hazırkı dünya çempionu və dünya şahmat reytinqinin lideri Çin yığmasının üzvü Xou İfanı məğlub edib.

34 yaşlı şahmatçı və maliyyə naziri əvvəllər ölkəsinin iqtisadiyyat naziri olub. Latviya iqtisadiyyatına yüksək töhfələr verdiyinə görə, irəli çəkilərək maliyyə naziri təyin edilib.

Xanım şahmatçı qızlar arasında 4 dəfə öz ölkəsinin çempionu, iki dəfə Avropa çempionu zirvəsini qazanıb.

Amma, Bakıdakı yarışda dünya çempionuna qalib gəlməsinə özü də təəccübünü gizlədə bilməyib.

## BU DƏSMAL VƏ GEYİMLƏR YUYULMADAN DA TƏMİZ QALACAQLAR

"JPLiving SilverBamboo" özü-özünü təmizləyən dəsmallar və ola bilsin ki, gələcəkdə paltarlarla bağlı yeni inqilabi layihədir. Artıq "JPLiving SilverBamboo" layihəsi "Kickstarter"in maliyyələşdirilməsinə hazırlaşır. Bu dəsmallar bambuk və gümüşün qarışığından hazırlanıb. Çünki bambukla gümüş dəsmalın tərkibindəki bakteriyaları məhv etməyə qadirdir.

Istifadə edilən dəsmal öz tərkibi sayəsində istifadədən sonra təmiz qalır. Sanitar normalarına görə, dəsmalın istifadəsindən sonra onu yumaq lazımdır. Amma belə sanitar normalar isə xeyli miqdarda suyun və kimyəvi yuyucuların işlədilməsinə səbəb olur.



Yuyulmayan dəsmallar isə adi dəsmallarla müqayisədə uzun müddət istifadə ediləcək, öz yumşaqlığını və təzəliyini qoruyacaq.

## QAZAXISTANDA QƏDİM PİRAMİDA AŞKARLANIB



Arxeoloqlar Qazaxıstanda Qədim Misir piramidalarına bənzər tikili aşkarlayıblar. Mavzoleyin üç min il bundan əvvəl ucaldıldığı güman edilir.

Tapıntını Sarıark arxeoloji institutunun əməkdaşları aşkarlayıblar.

Son bürünc dövründə (e.ə. XV-X əsrlər) Qazaxıstan ərazisində özlərindən sonra Beqazı-Dandıbayev mədəniyyətini qoymuş insanlar yaşayıblar. Bu mədəniyyət üçün qaya daşlarından tikilən hündür, dairəvi, düzbucaqlı əyan mavzoleyləri xarakterikdir. Dəfn mərasiminə uyğun olaraq ölü böyrü üstə, əlləri və ayaqları bükülmüş şəkildə qoyulur, yanında isə silah, bəzək və dulus məmulatları basdırılırdı.

Beqazı-Dandıbayev mədəniyyətinin çiçəkləndiyi ərazilərdən biri də Qaraqanda yaxınlığında yerləşən Sarıark qəsəbəsi ərazisi idi. Burada arxeoloji qazıntılar ötən əsrin ortalarından aparılır. Bu yaxınlarda isə arxeoloqlar pilləli mavzoley aşkarlayıblar. Öz formasına görə bu nəhəng dəfn tikilisi təxminən eyni tarixi dövrə aid məşhur Misir ehramlarını, xüsusilə də firon Coserin pilləli ehramını xatırladır.

## ARKTİKA BUZLARDAN AZAD OLUR

Kembric universitetinin professoru Piter Uodhems Arktikanın son yüz min il ərzində ilk dəfə buzdan azad olacağı vaxtı proqnozlaşdırıb.

Uodhems Arktikanın buz örtüyünü bu il və ya gələn il itirəcəyini güman edir.



Alimi bu qənaətə gəlməyə şimal yarımkürəsində buz örtüyünün mövcud ərimətempi və ABŞ-ın Milli Buz və Qar Mərkəzinin məlumatları vadar edib. Belə ki, 30 il əvvəl Arktikanın qışda buz örtüyü 12,7 milyon kvadrat kilometr təşkil edirdisə, 2016-cı ildə bu göstərici 11,1 milyon kvadrat kilometr olub.

1,6 milyon kvadratkilometrlik fərq Böyük Britaniya kimi altı ölkənin sahəsi ilə müqayisə oluna bilər. Hazırda buz örtüyünün sahəsi 3,4 milyon kvadrat kilometrə düşüb və yayın sonu, payızın əvvəlində cəmi bir milyon kvadrat kilometrə və ya sıfıra çata bilər.

Buz tamam ərimədiyi təqdirdə onun qalıqları Kanadanın şimal rayonlarındakı adalar arasında cəmləşəcək, Rusiya akvatoriyası yaxınlığında ona rast gəlinməyəcək. Hesablamalara görə, Arktika sonuncu dəfə buzdan 100-120 min il əvvəl azad olub. Uodhems Arktika buzlarının əriməsi nəticəsində orta illik temperaturun 0,6 dərəcə yüksələcəyini düşünür.

## FİLİPPİNLİ BALIQÇI DÜNYANIN ƏN BÖYÜK MİRVARİSİNİ 10 İL ÇARPAYISININ ALTINDA SAXLAYIB

Filippinli balıqçı 2006-cı ildə tapdığı dünyanın ən böyük mirvarisini on il evində saxlayıb. Balıqçı çəkisi 34 kiloqram, qiyməti 100 milyon dollar dəyərləndirilən mirvarini uğur tilsimi kimi evində gizlədibmiş.



Mirvarinin sahibi on il əvvəl güclü fırtınadan sonra, qayığının lövbərini qaldırarkən, lövbərin böyük balıqqulağına ilişdiyini görüb və balıqqulağını suyun səthinə çıxarıb. .

Mmirvarinin dəyərinin nə qədər olmasını balıqçı heç ağlına da gətirməyib. Yalnız evində yanğın baş verdikdən sonra başqa yerə köçən balıqçı mirvarini Puerto Prinsessa şəhərində Filippin turist idarəsinə göstərmək qərarına gəlir.

"Puerto Prinsessa" adı alan mirvari yaxınlarda xalqa təqdim olunacaq. Puerto Prinsessa hökuməti şəhərə turistləri cəlb etmək üçün mirvarini burada saxlanılmasını təklif edib.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 595 92 25 70
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.